*Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsilə bağlayır. Bu baxımdan sağlam düşüncəli və savadlı nəslin yetişdirilməsi hər bir ölkə üçün vacib məsələdir. Çünki ölkənin gələcək müqəddəratı gənclərdən asılıdır. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Milli dəyərləri yaşatmaq və ölkənin hərtərəfli, uğurlu inkişafına töhfə vermək isə hər birimizin borcudur.*

# Milli dəyərlərə bağlı, vətənpərvərlik ruhunda formalaşan gənc nəsil

Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır.

Ümummilli Liderimiz həmişə xalqına arxalanır, onun gəncliyinə böyük ümidlər bəsləyirdi. Dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Respublikaya rəhbərliyinin bütün dövrlərində ulu öndər sağlam düşüncəli gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xüsusi əhəmiyyət verirdi.

Ulu Öndər gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir və bunu müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi.

Ulu Öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra gənc nəslə diqqət və qayğı artırılmış, Azərbaycan gənclərinin təşkilatlanması əsas məqsədlərdən biri kimi qarşıya qoyulmuşdur. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədilə 1994-cü ildə yaradılmış Gənclər və İdman Nazirliyi qısa müddətdə dövlət gənclər siyasətinin istiqamətlərini müəyyənləşdirərək uğurla həyata keçirməyə başlamışdır.

Ümummilli liderin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilmişdir. Forumlarda gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm məsələ kimi qoyulmuşdur.

Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoymuşdur. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənclərin mənəvi inkişafı, onların vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan yüksək şərait Prezident İlham Əliyevin diqqət və qayğısının nəticəsidir. 2005-ci ildə gənc ailələrə güzəştli ipoteka kreditinin verilməsi bu qayğının bariz nümunəsidir.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da mühüm yer tutur. Dövlətimizin başçısının səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilmişdir. Olimpiya-idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi etməsi, idmançılarımızın olimpiadalarda, dünya çempionatlarında və digər mötəbər turnirlərdə uğurlu çıxışları buna əyani sübutdur.

Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı Sərəncamı gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da yüksəlməsinə səbəb olmuşdur. Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülmüş, uşaq və gənclər qeyri-hökumət təşkilatları yaradılmış, onların fəaliyyətlərinin təşkili üçün sağlam mühit formalaşdırılmış və hüquqi baza təkmilləşdirilmişdir.

Bu gün cəmiyyətin ən fəal hissəsi olan gənclər respublikamızın sosial-iqtisadi və ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Onlar elm, təhsil, mədəniyyət, idman və hərbi quruculuq sahəsində uğurlar qazanaraq Azərbaycanın dünyada tanıdılmasına, Vətənimizin müdafiəsinə, ərazi bütövlüyümüz və dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə layiqli töhfələrini verirlər.

Dövlət gənclər siyasəti ötən illərdə olduğu kimi, 2021-ci ildə də uğurla davam etdirilib. Ümummilli liderin müəyyənləşdirdiyi prinsiplər əsasında Prezident İlham Əliyevin fərman və sərəncamlarının tələbi və tövsiyələri istiqamətində ölkəmizdə milli dəyərlərə bağlı sağlam, mənəviyyatlı və vətənpərvər Azərbaycan gəncliyi formalaşdırılır. Bunun bariz nümunəsi 2016-cı il Aprel döyüşlərində daha aydın göründü. Həmin ayın 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Silahlı Qüvvələrimiz sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğratdı. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsi düşməndən təmizləndi. Ordumuz dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevincini yaşatdı. Bu sevincin daha böyük yaşantısı isə xalqa 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində Zəfər qələbəsi ilə başa çatan İkinci Qarabağ savaşında nəsib oldu. Azərbaycan gəncliyindən formalaşmış Silahlı Qüvvələrimiz bu savaşla işğalçı Ermənistan ordusunu məğlubiyyətə uğradaraq dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı.

Prezident İlham Əliyev çıxışlarının birində demişdir ki, təkcə silahlarla müharibəni qazanmaq mümkün deyil: "Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular..."

Bütün bunlar Prezident İlham Əliyevin 2021-ci il 18 avqust tarixli "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" barədə sərəncamından irəli gələn reallıqlardır. Strategiya Azərbaycanda yeniyetmə və gənclər arasında vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsini, hərbi hazırlığın müasir tələblərə uyğun təşkilini, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində daha təsirli tədbirlərin görülməsini zəruri edir.

Ötən ilin uğurlu yekunları sırasında ölkə başçısının fevralın 2-də "2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında" Sərəncamı da ictimaiyyətdə rəğbət doğurmuşdur. Sərəncama əsasən respublikamızın elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslər Prezident mükafatlarına layiq görülmüşlər.

Yola saldığımız 2021-ci ilə nəzər saldıqda Azərbaycan Prezidentinin ölkə gənclərinin sosial şəraitinin yaxşılaşmasına, sağlamlıqlarının qorunmasına, təhsil almalarına yönəlmiş neçə-neçə belə sərəncam və fərmanlar imzaladığının şahidi oluruq. Görünən odur ki, Azərbaycanda gənc nəslin problemlərinin kompleks həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakı üçün dövlət səviyyəsində mühüm işlər görülür. Məsuliyyəti artan gənclik isə bu diqqət və qayğını yüksək qiymətləndirir, ölkəmizin inkişafına, beynəlxalq aləmdə nüfuzunun daha da artmasına və qarşıya qoyulan vəzifələrin həyata vəsiqə qazanmasına öz töhfələrini verir.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

Respublika.- 3 fevral.- 2022- ci il.- S. 10.